TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
"20" may 2020-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**TRİKARDİN ÜRƏK DAMCISI** daxilə qəbul olunan damcı
TRICARDIN HEART DROPS

**Tərkibi**
*Təsiredici maddə*: 1 ml preparatın tərkibində 0,34 ml pişikotu tinkturası (*tinctura Valerianae*) (1:5) (ekstragent – 70 %-li etanol), 0,33 ml yemişan tinkturası (*tinctura Crataegi*) (1:10) (ekstragent – 70 %-li etanol), 0,33 ml şirquyruğu tinkturası (*tinctura Leonuri*) (1:5) (ekstragent – 70 %-li etanol) vardır.

**Təsviri**
Sarımtıl-qəhvəyidən qəhvəyi-qonura qədər rəngli, pişikotu qoxulu mayedir. Saxlanma müddətində çöküntünün əmələ gəlməsi mümkündür.

**Farmakoterapevtik qrupu**
Müxtəlif kombinəolunmuş kardioloji preparatlar.
**ATC kodu**: C01E X.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Trikardin kardioloji və sedativ preparatdır. "Trikardin ürək damcısı" preparatının müalicəvi təsiri pişikotu kökünün və kökümsovunun, yemişan meyvələrinin, şirquyruğu otunun tərkibində olan bioloji aktiv maddələr kompleksinin təsiri ilə əlaqədardır.
Yemişan meyvələrinin tərkibində olan bioloji aktiv maddələr (flavonoidlər, xolin, asetilxolin, aşı maddələri, fitosterinlər) hipotenziv, kardioprotektor, spazmolitik xassələrə malikdir; tac damarlarda və beyin damarlarında qan dövranını gücləndirir, miokardın ürək qlikozidlərinin təsirinə qarşı həssaslığını yüksəldir, ürək əzələsinin yığılma qabiliyyətini bir qədər gücləndirirlər və bununla yanaşı, onun oyanıqlığını aşağı salırlar.
Pişikotu kökünün və kökümsovununn tərkibində olan bioloji aktiv maddələr (borneolun və izovalerian turşusunun mürəkkəb efiri, borneol, izovalerian turşusu, alkaloidlər, aşı maddələr, saxaridlər) mərkəzi sinir sisteminin (MSS-in) oyanıqlığını aşağı salırlar, həddindən artıq psixi gərginlik və əqli yorğunluq zamanı gərginliyi və əsəbiliyi aşağı salırlar, sedativ, yuxugətirici, spazmolitik xüsusiyyətlər nümayiş etdirirlər, MMS-ə tormozlayıcı təsir göstərən digər dərman preparatlarının, xüsusilə, sedativ və yuxugətirici preparatların, trankvilizatorların təsirini gücləndirirlər. Bundan əlavə, pişikotunun tərkibində olan bioloji aktiv maddələr ödqovucu təsir nümayiş etdirirlər, ürək ritmini ləngidirlər, ürəyin koronar damarlarını genişləndirirlər, mədənin selikli qişasının sekretor aktivliyini gücləndirirlər.
Şirquyruğu otunun tərkibində olan bioloji aktiv maddələr (efir yağı, saponinlər, aşı maddələr, alkaloidlər) mərkəzi sinir sistemində oyanma proseslərini aşağı salırlar, arterial təzyiqin normalaşmasına və fizioloji yuxunun baş verməsinə səbəb olurlar, və həmçinin, digər sedativ və

yuxugətirici preparatların effektlərini gücləndirirlər.
***Farmakokinetikası***
Öyrənilməyib.

**İstifadəsinə göstərişlər**
Ürək-damar sisteminin fəaliyyətinin funksional pozğunluqları (neyrosirkulyator distoniya, vegetonevroz), sinir gərginliyi baş verdikdə və yuxusuzluq zamanı sakitləşdirici preparat kimi.

**Əks göstərişlər**
Anamnezdə alkoqolizm; tərkibində alkoqol olan digər preparatların eyni zamanda istifadəsi; mədə və onikibarmaq bağırsağın xora xəstəliyi; qaraciyər sirrozu; hamiləlik və ya laktasiya dövrü; depressiya və mərkəzi sinir sistemin tormozlanması ilə müşayiət olunan digər pozğunluqlar; şiddətli arterial hipotenziya və bradikardiya; preparatın tərkibində olan hər hansı komponentə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
"Trikardin ürək damcısı" preparatından istifadə müddətində alkoqol tərkibli içkilərin istifadəsindən çəkinmək lazımdır. Qida komponentləri ilə qarşılıqlı təsirdən qaçınmaq məqsədi ilə, preparatı yemək zamanı qəbul etmək tövsiyə olunmur.
Preparatın tərkibində etanol vardır! Uzun müddət ərzində istifadə etmək tövsiyə olunmur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Preparat trankvilizatorların, neyroleptiklərin, yuxugətiricilərin, sedativ preparatların, analgetiklərin, spazmolitiklərin, ürək dərmanlarının və hipotenziv preparatların təsirini gücləndirə bilər; həmçinin, alkoqolun təsirini gücləndirir.
Neqativ komplekslərin əmələ gəlmə ehtimalını nəzərə alaraq, preparatı, alkaloid tərkibli duzlarla birlikdə istifadə etmək tövsiyə olunmur.
Preparatın III sinif aritmiyaəleyhinə preparatlarla və həmçinin sizapridlə birlikdə istifadəsi tövsiyə olunmur.
Preparat, ürək qlikozidlərinin effektlərini gücləndirir.
Digər dərman preparatlarının eyni zamanda istifadəsi barədə həkimi məlumatlandırmaq lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə istifadəsi əks göstərişdir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparatdan istifadə etdikdə, nəqliyyat vasitələrini və ya digər potensial təhlükəli mexanizmləri idarə etməkdən çəkinmək lazımdır.

**İstifadə qaydası və dozası**
*Böyüklərə* "Trikardin ürək damcısı" preparatını sutkada 3 dəfə yeməkdən əvvəl 20-30 damcı daxilə təyin etmək lazımdır.
*12 yaşdan yuxarı uşaqlara* preparatı, həyatlarının hər 1 ilinə 1 damcı hesabı ilə, sutkada 3 dəfə yeməkdən əvvəl təyin etmək lazımdır.
Müalicə kursunun davametmə müddəti, patoloji prosesin xüsusiyyətini və ağırlıq dərəcəsini, xəstəliyin gedişinin xüsusiyyətlərini, preparata qarşı tolerantlığı və əldə olunan müalicə effektinin stabilliyini nəzərə alaraq, hər bir pasiyent üçün fərdi qaydada müəyyən olunur.
*Uşaqlar*
12 yaşa qədər uşaqlara təyin etmək olmaz.

**Əlavə təsirləri**
*Ürək-damar sistemində baş verən pozğunluqlar*: hipotenziya, ürək ritminin əhəmiyyətli dərəcədə

ləngiməsi.
*Sinir sistemində baş verən pozğunluqlar*: depressiya, emosional reaksiyaların tormozlanması, başgicəllənmə, yuxuya meyillilik.
*Həzm sistemində baş verən pozğunluqlar*: ürəkbulanma, qarın nahiyəsində spastik ağrılar.
*Allergik reaksiyalar*: qızarma, səpgilər, qaşınma, dəri ödemi.
*Ümumi pozğunluqlar*: yorğunluq hissi, əqli və fiziki iş qabiliyyətinin aşağı düşməsi.
Hər hansı arzuolunmayan reaksiyalar meydana çıxdığı halda, həkimə müraciət etmək lazımdır.

**Doza həddinin aşılması**
Tövsiyə olunan dozaları əhəmiyyətli dərəcədə aşdıqda, aşağıdakı simptomlar müşahidə oluna bilər – baş ağrısı, başgicəllənmə, yuxuya meyillilik, bradikardiya, arterial təzyiqin aşağı düşməsi, ümumi zəiflik, qarın nahiyəsində ağrı, ürəkbulanma, eşitmə və görmə itiliyinin aşağı düşməsi, ürək çırpınması hissi, psixi oyanıqlıq, hiperhəssaslıq təzahürləri; bu hallar meydana çıxdıqda, preparatın istifadəsinin dayandırılması və simptomatik müalicənin aparılması tələb olunur.

**Buraxılış forması**
50 ml, şüşə və ya plastik flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25° C-dən yuxarı olmayan temperaturda, orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
4 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı/Ərizəçi**
"Ternofarm" MMC, Ukrayna.

**Ünvan**
Ukrayna, 46010, Ternopol şəh., Fabriçnaya küç., 4.
Tel.:/Faks: (0352) 521-444, www.ternopharm.com.ua